# FITNƏ-FƏSAD YUVASI

---

<"xml encoding="UTF-8?>

## QIRX ALTINCI HEKAYƏT

# Fitnə-fəsad yuvasI

İmam Əli (əleyhissalam) Bəsrə camaatı ilə Bəsrənin gələcək fıtnə və fəsadları camaatın imanı, hicrəti və cihadı barədə söhbət edirdi. Həzrət bu barədə onlara müxtəlif nəsihət və .möizələr söyləyirdi

:Quran və Quranla bağlı məsələlərdən söz düşdükdə Həzrət belə buyurdu

Hər kim Quran əsasında söz desə, düz deyibdir. Hər kəs də Quranın buyurduqlarına əməl“ ”.etsə bu işdə başqalarından irəli keçibdir

:Bu vaxt bir kişi ayağa qalxıb dedi

Ey Möminlər ağası, bizə fıtnə”-dən söylə. Görəsən bu barədə Rəsulullah səlləllahu əleyhi və“ alihi və səlləmdən bir şey sual edibsən?!” İmam onun cavabında “Ənkəbut” surəsinin ilk iki :ayəsini tilavət etdi

Görəsən camaat öz başlarına buraxılaraq imtahan və sınaqdan keçməyəcəkləri barədə“ ”.?fikirləşirlər

Sonra buyurdu: Mən Peyğəmbəriin bizim aramızda olduğu müddətdə son imtahandan keçə bilməməyimizi bilmirdim. O Həzrətdən bu fitnədən məqsədin nə olmasını soruşduqda :Peyğəmbər buyurdu

”.Ya Əli! Məndən sonra mənim ümmətim imtahan verməli olarlar“

Tezliklə öz malları ilə imtahan və sınaqdan keçərlər, lakin öz dindarlıqlarını Allaha minnət sanar və elə bu hal ilə də Allahın rəhmətinə ümidvar olaraq özlərini Allah qəzəbindən amanda hesab edərlər. Haramı yalan hiylələrlə halal sayaraq şərabı nəbiz, (kişmiş suyu) rişvəni hədiyyə, .sələmi isə ticarət adı altında halal və rəva bilərlər

Peyğəmbərdən bu adamların “mürtədlər” məkanında (dindən dönələr) ya fitnə mənzilində .olmalarını soruşduqda Həzrət “Onları fitnə mənzilində qərar ver” deyə buyurdu